https://doi.org/10.59849/2410-5600.2025.1.16

UOT: 09

**Yeganə Rəhnulla**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*
*e-mail: yegane.rahnulla@mail.ru*

# LƏZGİ-İSLAM ALİMİ HƏSƏN ƏL-ƏLQƏDARİ VƏ ONUN AVTOQRAF ƏLYAZMA MƏCMUƏSİNİN ELMİ- PALEOQRAFİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Azərbaycanın ictimai həyatında öz yaradıcılığı ilə mühüm rol oynayan Azərbaycanlı olmayan alimlərindən biri, ləzgi xalqının görkəmli nümayəndəsi Mirzə Həsən əl-Əlqədaridir. Dağıstanda anadan olmasına, böyüyüb təhsil almasına baxmayaraq, Azərbaycan dilini öyrənmiş, Azərbaycanda publisistika ilə məşğul olaraq yerli ictimai və elm xadimləri ilə sıx əlaqədə olmuşdur. Bu səbəbdən alim ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dilində də əsərlər qələmə almış və məşhur əsərlərin bir neçəsinin üzünü köçürərək katiblik etmişdir. Həsən əl-Əlqədarinin zəngin yaradıcılığından olan nümunələr Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda avtoqraf əlyazmalar, əski çap kitabları, dövri mətbuat materialları, şəxsi arxivlər fondunda qorunmaqdadır. Əlyazmalar İnstitutunda saxlanılan avtoqraf kitablarından olan B-4156 şifrəli abidədə müəllifin vəfatına yaxın yazdığı fiqhi məzmunlu əsərin tarixi h. Rəcəb 1328/m.İyul 1910-cu il qeyd edilmişdir.

***Açar sözlər:*** *Azərbaycan əlyazmaları, ləzgi-İslam alimi, avtoqraf əlyazma məcmuələri, Həsən əl-Əlqədari*

## Giriş

*XIX əsrin sonlarında XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən ləzgi elm sahiblərindən biri Dağıstan tarixçisi, maarifçi, şair, "Əkinçi" və "Ziya" qəzetlərinin müxbirlərindən biri Mirzə Həsən bin Hacı Abdulla ibn Qurbanəli əl-Əlqədari əd-Dağistanidir. Əslən Dağıstanın Əlqədar kəndindən olan Həsən əl-Əlqədari 1834-cü il 15 oktyabrda Dağıstanın Balaxanı kəndində ziyalı ailəsində anadan olmuş, sonralar ailəsi ilə birlikdə Əlqədar kəndinə köçmüşdür. Atası Hacı Abdulla Əfəndi dövrünün məşhur alimlərindən olan, Cənubi Qafqazda müridizmin təməlini qoyan, Dağıstanda və Çeçenistanda imamlar yetişdirən Şeyx Məhəmməd əl-Yərağinin (1771-1838) kürəkəni, tələbəsi və davamçısı olmuşdur. Qrammatika, məntiq, təfsir, hədis, riyaziyyat, ədəbiyyat kimi elmləri dərindən bilən Hacı Abdulla Əfəndi oğlunun da ilk müəllimi olmuşdur. Anası Məhəmməd əl-Yərağinin qızı Hafizə xanım da dövrünün ziyalı xanımlarından biri olmuşdur.*

Uşaqlıq və gənclik dövrü Əlqədar kəndində keçən Həsən əl-Əlqədari ilk təhsilini atasından aldıqdan sonra dayısı İsmayıl Əfəndi əl-Yərağı və dövrünün tanınmış filosofu, şairi, ərəb və fars dillərini mükəmməl bilən Mirzə Əli əl-Axtılıdan (1770-1859) elmin sirlərini öyrənmişdir. Həsən əl-Əlqədari xatirələrində müəllimi Mirzə Əli əl-Axtılını ehtiramla yad etmiş və ona bir neçə əsər ithaf etmişdir. Həsən əl-Əlqədari Dağıstanda anadan olmasına və təhsil almasına baxmayaraq, Azərbaycanın ictimai və ədəbi həyatında mühüm xidmətləri olmuşdur. Belə ki, Həsən bəy Zərdabinin

(1837-1907) təsis etdiyi "Əkinçi" qəzetinin müxbiri və ilk şairi olaraq əməkdaşlıq etmişdir. "Əkinçi"də şeirlə çıxış edən ilk müxbir məhz Mirzə Həsən Əfəndi olmuşdur. Qəzetin 5 sentyabr 1875-ci tarixli 4-cü nömrəsində "Əkinçi qəzetinin şükrnaməsi" başlığı altında Tabasarandan göndərdiyi, "Məmnun" təxəllüsi ilə yazdığı 7 beytlik bir qəzəli dərc olunmuşdur və bu "Əkinçi" qəzetində çap olunan ilk ədəbi nümunə, ilk şeir idi. "Əkinçi" qəzeti bağlandıqdan sonra "Ziya" qəzeti ilə əməkdaşlıq edərək, yazılar nəşr etdirmişdir [1].

1856-cı ildə Yuxarı Yaraq qəsəbəsinə köçmüş Həsən Əfəndi altı il orada sonuncu Kürə xanı, general əl-Hac Yusif xanın uşaqlarının müəllimi, eyni zamanda xanlığın divan katibi vəzifəsində işləmişdir. Kürədə rus divanxanası açıldıqda orada dairə hakimi vəzifəsində çalışmışdır

Əlqədari 1862-1866-cı illərdə Qasımkənd qəsəbəsində divan üzvü, 1866-1877-ci illərdə isə hərbi rütbə alaraq Cənubi Dağıstanda Tabasaranın naibi olmuşdur. 1877-ci ildə Dağıstanda Çar Rusiyasına qarşı qalxan üsyana yardım ittihamı ilə həbs edilmiş, yeddi ay Dərbənddə həbsdə qaldıqdan sonra azadlığa buraxılan Həsən Əfəndi 1879-cu ilədək Əlqədarda mədrəsədə dərs vermişdir. Lakin həmin il alim eyni ittihamla Tambov quberniyasının Spassk şəhərinə sürgünə göndərilmişdir. Dörd il davam edən sürgün illərində Həsən Əfəndi dini-fəlsəfi məzmunlu qısa risalələr yazmışdır. Bu risalələrin çoxu müsəlmanların ona göndərdikləri suallara cavablardır. Alim 1883-cü ildə Həştərxana göndərilmiş, sonra isə III Aleksandrın amnistiya əmri çıxmış və azadlığa buraxılaraq Əlqədara qayıtmışdır. Ömrünün sonuna qədər açdığı məktəbdə dərs vermiş və elmi fəaliyyətinə də davam etmişdir. 12 sentyabr 1910-cu ildə 76 yaşında vəfat etmiş Həsən əl-Əlqədarinin altı oğlu və beş qızı olmuşdur [2; 3, s.95-102; 4, s.77-81].

Ərəb, fars, türk dillərini mükəmməl bilən əl-Əlqədari bu dillərdə nəzm və nəsrdə tarix, İlahiyyat elmləri, qrammatika sahəsində çoxlu sayda əsərlər qələmə almışdır. Alimin ən məşhur əsəri Dağıstan tarixindən bəhs edən "Asari-Dağıstan" kitabı, Abbasqulu ağa Bakıxanovun (1794-1847) "Gülüstani-İrəm" kitabından bəhrələnərək qələmə almışdır. Ön sözünün müəllifi Axund Yusif Talıbzadə (1877-1923) olan kitab Azərbaycanın məşhur xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin (1838-1924) ianəsi ilə 1903-cü ildə Bakıda Azərbaycan dilində nəşr edilmişdir. Sonra oğlu Əli Həsənov əsəri rus dilinə tərcümə edərək 1929-cu ildə ictimaiyyətə təqdim etmişdir. Hacı Zeynalabdin Tağıyevin ianəsi ilə çap olunan müəllifin növbəti əsəri olan "Kitab Əthəri-Dağıstan" 1894-1895-ci ildə Sankt-Peterburqda işıq üzü görmüşdür.

AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunda Həsən əl-Əlqədarinin avtoqraf əlyazması, əsərləri, dövri mətbuat materialları, katibi olduğu əlyazma nüsxələrinin daxil olduğu yazılı elmi irsindən bir hissə qorunub saxlanılmaqdadır. Alimin Əlyazmalar İnstitutunda saxlanılan bu elmi irsi İnstitutun əməkdaşları tərəfindən müxtəlif illərdə araşdırılaraq elmi məqalə qismində ictimaiyyətə təqdim edilmişdir [3, s.95-102; 4, s.77-81]. 30-a yaxın əlyazma toplusuna daxil olan onlarla əsərin katibi müəllifin özü olaraq, avroqraf nüsxələrdir. Onlardan "Cirab əl-Məmnun" adlı iri həcmli B-4156, B-5256 şifirli əlyazma məcmuələrində əqaid, Şafei məzhəbinin fiqhi haqqında sual-cavab, ədəbiyyat mövzularında olan əsərlər daxildir. B-2434, B-3059, B-3154, B-3518, B-4773 şifirli əlyazma topluları kiçik həcmli olaraq yuxarıda göstərilən məcmuələrə daxil olan əsərlərin bəziləri öz əksini tapır.

Əlyazmalar İnstitutunun zəngin xəzinəsində mühafizə olunan əski çap kitabları arasında Həsən əl-Əlqədarinin bir neçə əsəri də yer alır. Onlardan aşağıda təqdim edilən əsərləri qeyd etmək olar; ön sözünün müəllifi Axund Yusif Talıbzadə olan "Asari-Dağıstan", Azərbaycanın məşhur xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin ianəsi ilə h.1312/m.1895 ildə Sankt-Peterburqda Azərbaycan dilində nəşr edilmişdir [5, s.1]. 255 səhifəlik kitabın birinci vərəqində Azərbaycan dilində əski əlifbada əsərin və müəllifin adı, Z. Tağıyev tərəfindən maliyələşməyi, çap tarixi və şəhərin adı qeyd edilmişdir. İkinci səhifədə isə rus dilində "S-Peterburq, 5 Avqust 1902-ci il" sözləri yazılmışdır. 306 səhifəlik "Cirab əl-Məmnun" kitabı Dağıstanın Temirxan (Teymurxan) Şurasında Məhəmməd Mirzənin "İslamiyyə"

mətbəəsində ərəb dilində 1912-ci ildə nəşr edilmişdir [6, s.1]. Həsən əl-Əlqədarinin 282 səhifəlik "Divan əl-Məmnun" əsərinin əski çap kitabı Dağıstanın Temirxan (Teymurxan) Şurasında Məhəmməd Mirzənin "İslamiyyə" mətbəəsində ərəb dilində 1913-cü ildə nəşr edilmişdir [7, s.1].

Əlyazmalar İnstitutunda müəllifin əsərlərindən əlavə katibi olduğu əlyazma nüsxələri də mühafizə edilir. Həsən əl-Əlqədari tərəfindən köçürülən məşhur əsərlərdən biri B-2005 şifrəsi altında qorunan Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəridir.

Həsən əl-Əlqədarinin Əlyazmalar İnstitutunda saxlanılan avtoqraf kitablarından olan B-4156 şifrəli abidənin 57[a] vərəqində ərəb dilində "Cirab əl-Məmnun" sözləri yazılmışdır. Eyni adlı əlyazma toplusuna Gürcüstanda, Tiflis şəhərində yerləşən Gürcüstan Elmlər Akademiyası K.S. Kekelidze adına Əlyazmalar İnstitunda da qorunmaqdadır. Kataloqda olan məlumata əsasən h.1331-1334/m. 1902-1904-cü illər arasında katib Xalid ibn Qurban Məhəmməd Əfəndi ər-Ruğuci əl-Avari tərəfindən Dağıstanın Yaraq kəndində köçürülmüşdür. Gürcü mütəxəssisləri katibin əlyazma kitabın sahibi olan Qurban Məhəmməd Əfəndinin oğlu olmasını ehtimal edirlər. Onu da qeyd etmək lazımdır ki, Həsən əl-Əlqədarinin əsərlərində adı çəkilən, onun da suallarını cavablandırdığı Qurban Məhəmməd Əfəndi adına rast gəlinir və eyni şəxs olması da təxmin edilir. Gürcüstanda saxlanılan əlyazma toplusu ilə Azərbaycanda saxlanılan əlyazma toplusu arasında əsərlərin yerləşməsi və tarixi baxımından müxtəlif fərqlər var. Belə ki, Azərbaycanda saxlanılan əlyazma toplusunun əvvəlində müxtəlif alimlərə aid əsərlər Dağıstan katibləri tərəfindən h.1315-1316/m.1897-1898-ci ildə Dağıstanın Zahit kəndində köçürülmüşdür. "Cirab əl-Məmnun" adlı başlıqdan sonra gələn əsərlərin ardıcıllığında da fərqlər var və bu fərqlər aşağıda qeyd edilən əsərlər haqqında məlumatda verilmişdir. Azərbaycanda saxlanılan abidədə əsərlər həm müəllif tərəfindən, həm də h. 4 Zil-hicc. 1323/m. 29 May 1895-ci ildə Məhəmməd bin Molla Mehdi tərəfindən Həsən əfəndi əl-Əlqədarinin mədrəsəsində köçürülmüşdür. Bütün bu faktlar Azərbaycanda saxlanılan əlyazma toplusunun Gürcüstanda saxlanılan əlyazma toplusundan əvvəl köçürüldüyünü göstərir. Bu əlyazma məcmuələrində müəllifin vəfatına yaxın yazdığı əsər əlyazma toplusunun 214[b]-216[b] vərəqlərini əhatə edən fihqi məzmunlu *"Fi iqamə salət əz-zuhr bəəd əl-cumə fi qurra Dağıstan"* əsəridir [8, s.214[b]-216[b]]. Hər iki məcmuədə tarix h. Rəcəb 1328/m. İyul 1910-cu il qeyd edilmişdir.

Həsən əl-Əlqədarinin avtoqraf əsərlərinin yer aldığı B-4156 şifirli əlyazma nüsxəsində risalələr əsasən Rusiya istehsalı olan kağızlara qara mürəkkəblə Dağıstan xətti ilə köçürülmüşdür. Toplunun içində əlavə kağızlara rast gəlindi, onlardan biri kitab vərəqinə ərəb dilində yazılmış, h.1337/m. 1919-cu ilə məxsus məktubdur. Vərəqdə məktub sahibinin imzası və içində *"Əbduhu Səlim"* yazılmış şəxsi oval möhür vardır. Cildi qara-qəhvəyi rəngli kartondur, özəyi isə parçadan ibarətdir. Əlyazma məcmuəsinin ümumi həcmi 244 vərəq, ölçüsü isə 18,5 x 22,5 sm.dir.

1. Əlyazma nüsxəsi ilk olaraq fiqh elmi sahəsində nikah kimi müxtəlif mövzular haqqında sual-cavab tipli risalələrlə başlayır. Abidənin 6[a]-6[b] vərəqində Molla Əbdüllətif və Molla Əbdürrəhmana sonu naqis olan məktub tipli risalə yerləşir.

2. Əlyazma toplusunun 18[b]-30[b] vərəqlərində Hənəfi fiqh alimi Həmid bin Əli bin İbrahim bin Əbdürrəhim əl-İmadinin (v.h.1171/m.1758) nikahdan bəhs edən *"Risalə fi bəyan hukm nikah"* əsəri yerləşir. Risalə dünyanın müxtəlif kitabxanalarında, həmçinin Suriyanın Dəməşqdə yerləşən *"əz-Zahiriyyə"* kitabxanasında qorunmaqdadır [10, c.II, s.132]. 18[a] vərəqində kalafon formasında qara mürəkkəblə müəllif və əsər haqqında məlumat verilib. Risalə qara mürəkkəblə səliqəli nəsx xətti ilə Rusiya istehsalı sarımtıl rəngli kağızlara köçürülüb. Vərəqlərin kənarına içində "№4" yazılmış fabrikin dördbucaq möhürü vurulub. Bəzi sözlərin yazılmasında qırmızı mürəkkəbdən istifadə edilib, həmçinin bəzi söz və ifadələrin üzərindən qırmızı mürəkkəblə xətt çəkilib. Orta əsr mətnşünaslığında tətbiq edilən şərti işarələr həm qara, həm də qırmızı mürəkkəblə yazılıb. Əlyazma Şərq üsulu ilə səhifələnib.

3. Növbəti vərəqlərdə sual-cavab tipli risalələrlə davam edir. Əlyazma məcmuəsinin $36^b$-$47^b$ vərəqlərində Təqiəddin Əbu əl-Abbas Əhməd bin Teymiyyəyə (v.h.728/m.1328) məxsus *"Fiqh ən-nisa fi əz-zəvac və əl-işrə və ən-nuşuz və ət-talaq"* əsəridir. Əlyazmalar İnstitutunda əsər *"Risalə fi ət-talaq"* adı altında mühafizə olunmaqdadır. $36^a$ vərəqində qara mürəkkəblə kalafon formasında müəllif və əsər haqqında məlumat verilib. Risalə katib Mehdi bin Molla Ramxan tərəfindən h.1315/m. 1897-ci ildə Dağıstanın Zahit kəndində köçürülmüşdür.

4. Əlyazma toplusunun $49^a$-$52^a$ vərəqlərində Cəmaləddin Qazi-Qumuqskiy kimi tanınan Hacı Əbdürrəhman Cəmaləddin əl-Hüseyn əl-Qibudi əl-Qumuqi əd-Dağistaninin (v.1866) *"Risalə fi məsələ heyvan əl-məzbuh"* əsəri yer almışdır. Əsər fiqh elminə aid olub heyvanların kəsilmə qaydalarından bəhs edir. Bu əsər də katib Mehdi bin Molla Ramxan tərəfindən h.1316/m. 1898-ci ildə Dağıstanın Zahit kəndində köçürülmüşdür.

5. Dörd boş vərəqdən sonra $57^a$ vərəqində ərəb dilində "Cirab əl-Məmnun" sözləri yazılmışdır. Abidənin $57^b$-$72^b$ vərəqlərdə Həsən əl-Əlqədariyə məxsus *"Risalə fi məsail ər-rədda əl-İslami"* əsəri yerləşmişdir. Müqəddimə və üç fəsildən ibarət olan risalədə İslam dini ilə bağlı bəzi suallar cavablandırılır. Vərəqləri Rusiya istehsalı olsa da, möhürlər fərqlidir, belə ki, bu vərəqlərdəki möhürlər tac formasındadır. Əsərin sonunda müəllifin adı və tarix qeyd edilmişdir: h. 18 Rəbiul-əvvəl 1293/m. 13 Aprel 1876.

6. Həsən əl-Əlqədariyə məxsus növbəti risalə əlyazma məcmuəsinin $73^a$-$76^b$ vərəqlərini əhatə edir. Fiqhə aid olan əsər müxtəlif mövzuları əhatə edən on sual-cavabdan ibarətdir. Müəllif bu əsəri h.Ramazan 1297/m.Sentyabr 1880-cı ildə köçürmüşdür.

7. Bir səhifədən ibarət olan risalə fiqhi məsələlərdən bəhs edərək $77^a$ vərəqində yerləşir. Sonda Həsən əfəndi əl-Əlqədari tərəfindən h.12 Şaban 1314/m.16 Yanvar 1897-ci ildə köçürülməsi qeyd edilmişdir.

8. Əlyazma məcmuəsinin $77^b$-$91^a$ vərəqlərini əhatə edən əsərin müqəddiməsində Həsən əl-Əlqədari bu günlərdə sayılıb-seçilən müasirlərindən olan Molla Məhəmməd əl-Həmmamın fiqhə aid olan risaləsi ilə rastlaşdığını və burada bəzi məsələləri cavablandırdığını qeyd etmişdir. Nikah, talaq, qəzavü-qədər, cənnət, qiyamət, əxlaq, ibadət kimi mövzuları əhatə edən risalə özündə iyirmi səkkiz məsələni ehtiva edir. Əsərin sonunda hərflər ilə h. 3 Məhərrəm 1312/m. 7 İyul 1894-cü il qeyd edilmişdir. Mətnin içində və sonda müəllif tərəfindən h.1312/m.1894-cü il tarixində yazılmış şeirlərə rast gəlinir.

9. Zəkatla bağlı risalə əlyazma toplusunun $91^b$-$92^b$ vərəqlərini əhatə edir. 7 cavabdan ibarət olan əsərin sonunda tarix h.Rəcəb 1312/m.Dekabr 1894-cü il qeyd edilmişdir. Gürcüstan kataloqunda *"Fi hukmi zəkat ən-nəbat"* kimi qeyd edilən bu əsərin yazılma tarixi də eynidir [10, c.II, s.193].

10. İslam dininə aid Qurban Məhəmməd Əfəndinin bəzi suallarına Həsən əl-Əlqədari tərəfindən sual-cavab əlyazma məcmuəsinin $93^a$-$93^b$ vərəqlərini əhatə edir. Sonu *"Sizin dualarınız həqir Həsən əl-Əlqədari"* sözləri ilə bitən mətn h. Ramazan 1308/m. Aprel 1891-ci ildə yazılmışdır. Gürcüstanda da saxlanılan bu əsər kataloqda *"Cavab sual Qurban Məhəmməd Əfəndi fi hukm beyə əhli qəriyəti qitəəti həriməti"* adı ilə qeyd edilmiş, tarixi isə eynidir [10, c.II, s.193].

11. Həsən əl-Əlqədariyə məxsus *"Risalə fi məsail ət-təhrir əd-duxan"* əsəri əlyazma toplusunun $94^a$-$94^b$ vərəqlərini əhatə edir. Siqaretlə bağlı məsələlərdən bəhs edən əsərin sonunda tarixi və müəllifin adı qeyd edilmişdir: *"h. Zilqədə 1307/m. İyun 1890 həqir Həsən əl-Əlqədari"*. Gürcüstanda da saxlanılan bu əsər kataloqda *"Hökm əd-duxan əl-məəruf bitutun və tənbəki"* adı ilə qeyd edilmişdir [10, c.II, s.192].

12. Əlyazma məcmuəsinin $95^a$-$98^a$ vərəqlərində Molla Əyyub əl-Ğumiqiyə məxsus *"Təlxiz mətlub fi muşkilat Molla Əyyub"* adlı əsərlə bağlı Həsən əl-Əlqədari tərəfindən yazılmış sual-cavab yer alır. On sual-cavabdan ibarət olan risalənin sonu səkkiz misralıq şeirlə bitir. Əlyazmalar

İnstitutunda qorunan bu əsər h.Zil-hiccə 1286/m. Mart 1870-ci ildə köçürülmüş, Gürcüstanda da mühafizə olunan nüsxə isə h.1284/m.1867-1868-ci ildə köçürülmüşdür [10, c.II, s.190].

13. Molla Qurban Məhəmmədə cavab olan *"Fəth əs-saməd fi əcviba Molla Qurban Məhəmməd"* adlı əsər əlyazma toplusunun $98^b$-$100^b$ vərəqlərini əhatə edir. Mətnin əvvəlində əsərin adı qeyd edildiyi üçün Bakıda da, Tiflisdə də eyni adla mühafizə olunur. Mətn *"Cavab verən mən həqir Həsən əl-Əlqədari"* sözləri ilə bitir.

14. Dağıstan-İslam alimi Məhəmməd Əli əl-Çuxinin (1819-1878) əsəri ilə bağlı Həsən əl-Əlqədarinin cavablarından ibarət *"Əcviba Həsən əl-Əlqədari alə məsail Məhəmməd Əli əl-Çuxi"* əsəri əlyazma məcmuəsinin $100^b$-$103^a$ vərəqlərini əhatə edir. İslam dinində fiqhi məsələlərlə bağlı risalə doqquz cavabdan ibarət olaraq h.Səfər 1288/m.May 1871-ci ildə köçürülmüşdür. Gürcüstan kataloqunda da bu əsərə rast gəlindi [10, c.II, s.205-206].

15. Növbəti risalə də Məhəmməd Əli əl-Çuxinin əsərinə Həsən əl-Əlqədari tərəfindən yazılmış cavab olaraq abidənin $103^b$-$104^b$ vərəqlərini əhatə edir. Gürcüstan kataloqunda *"Cavab əsiləti Məhəmməd Əli əl-Çuxi fi əskinas və ğeyrihi"* adı kimi qeyd edilən əsərin yazılma tarixi eynidir. Müxtəlif mövzuları əhatə edən beş cavabdan ibarət əsər h. Şaban 1284/m.Dekabr 1867-ci ildə yazılmışdır Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.189].

16. Əlyazma toplusunun $105^a$ -$110^a$ vərəqlərini əhatə edən mətnin əvvəlində qırmızı mürəkkəblə əsərin adı *"Təhqiq əl-məqal fi fədail əl-al"* kimi qeyd edilmişdir. Həsən əl-Əlqədari müqəddimədə Türk və Ərəb dilində yazdığı Əhli-beyt haqqında olan bəzi qəsidələrin izahını verməsini yazmışdır. Sonda əsərin yazılma tarixi h.13 Rəbiul əvvəl 1305/m.29 Noyabr 1887-ci il kimi qeyd edilmişdir. Gürcüstan kataloqunda isə bu əsərin adı *"Əcviba licəvayis fi həqqi Məaviyyə"*, tarixi isə 23 Rəbi I 1305/ 23 Dekabr 1887-ci il kimi verilmişdir [10, c.II, s.192].

17. Mövzunun davamı olaraq $110^a$ vərəqində ərəb dilində on beş misralıq şeir yazılmışdır. Burada Həsən əl-Əlqədarinin şair təxəllüsü olan *"əl-Məmnun"* adı qeyd edilmişdir.

18. Əlyazmalar İnstitutunda *"Risalə fi ən-nigah"* adı ilə mühafizə olunan əsər abidənin $110^b$-$115^a$ vərəqlərini əhatə edir. Risalə İslam dinində evlənməkdən, həmçinin Dağıstan alimlərinin ixtilaf etdiyi ərəb dilində evlənmək mənasını verən *"ən-nikah"* və *"ət-təzvic"* sözləri arasında fərqin izahından bəhs edir. Əsərin müqəddiməsində müəllifin adı tam olaraq *"Həsən ibn Hacı Abdullah əfəndi əl-Əlqədari"* yazılmışdır. Mətnin sonunda tarix h.20 Rəcəb 1304/m. 14 Aprel 1887-ci il yazılmışdır. Gürcüstanda qorunan nüsxədə isə bu əsərin adı *"Kəşf əl-fətah fi şərhi ən-nikah fi ixtilaf uləmai Dağıstan fi ləfzi ən-nikah və ət-təzvic"*, tarixi isə 2 Rəcəb 1304/27 Mart 1887-ci il kimi verilmişdir [10, c.II, s.191].

19. Abidənin $115^b$ vərəqində bir səhifəlik risalə mirasdan bəhs edir. Sonda tarix h. 13 Cumadi əl-axir 1308/m. 24 Yanvar 1891-ci il, yazan-köçürən isə Həsən əl-Əlqədari yazılmışdır.

20. Şüeyb əfəndi əl-Avariyə Həsən əl-Əlqədarinin cavabı olan *"Əl-məsalik əş-şəəbiyyə lil-məsail əş-şəəbiyyə"* əsəri əlyazma məcmuəsinin $116^a$-$123^b$ vərəqlərini əhatə edir. İslam dininin müxtəlif mövzuları haqqında iyirmi iki məsələninin cavablandırıldığı risalənin sonunda tarix sözlərlə qeyd edilmişdir: h. Zil-hiccə 1308/m. İyul 1891. Gürcüstan kataloqunda da bu əsərin adı eyni, tarixi isə 1308/1891-ci il kimi verilmişdir [10, c.II, s.193].

21. Həsən əl-Əlqədarinin divanından bir təxmis əlyazma toplusunun $123^b$-$125^a$ vərəqlərini əhatə edir. Haşiyələrdə müxtəlif istiqamətlərə nisbətən kiçik şriftlə qara mürəkkəblə nəsrdə yazılmış şərh və izahlar vardır. Sonu müəllifin təxəllüsü və yazılma tarixi olan h.3 Zil-qəda 1299/m.16 Sentyabr 1882-ci il ilə bitir. Gürcüstan kataloqunda da bu təxmis yer alır, tarixi isə 1285/1868-1869-cu il verilmişdir [10, c.II, s.385].



22. Həsən əl-Əlqədarinin şeirləri abidənin 125^a^-126^b^ vərəqlərində də davam edir. Burada müəllifin adına və yazılma tarixinə rast gəlinmədi.

23. Həsən əl-Əlqədarinin Hacı Məsud əfəndi əl-Qaziyə on beş məsələ ilə bağlı cavabı *"Məsail Hacı Məsud əfəndi əl-Qazfazili"* adlı əsərdə cəm olmuşdur. Əlyazma toplusunun 128^a^-130^b^ vərəqlərini əhatə edən əsər h. Şaban 1313/m. Yanvar 1896-ci ildə yazılmışdır. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.193].

24. Abidənin 130^b^ vərəqində yarım səhifə həcmində məktuba müəllif tərəfindən yazılmış cavab yer alır. Sonda yazılma tarixi h.23 Ramazan 1314/m.25 Fevral 1897, müəllif isə Həsən Əfəndi vələd (oğlu) Hacı Abdullah Əfəndi əl-Əlqədari kimi qeyd edilmişdir.

25. Növbəti məktuba cavab məcnuənin 131^a^ vərəqində davam edir. Sonda tarix Zil-qədə yazılsa da, il qeyd edilməyib, müəllifin adı isə *"yazdı həqir ər-Rəhimin ona rəhmi olan Həsən əl-Əlqədari"* kimi yazılmışdır.

26. Ğəznəğər əfəndi əd-Dağıstaninin əsərinə iyirmi beş sual-cavabdan ibarət olan *"Cəht əl-ğərib fi cavab əl-əryəb"* adlı əsər əlyazma məcmuəsinin 132^a^-140^b^ vərəqlərini əhatə edir. Əl-Əlqədari cavablarını nəsrlə bahəm nəzmlə də vermişdir. Risalənin müqəddiməsində müəllifin adı Həsən əl-Əlqədari əd-Dağistani kimi, sonda isə bu əsərin müəllif tərəfindən yazılması qeyd edilib. Özündə Quranın qiraəti, zəkat, oruc, namaz kimi dini mövzuları ehtiva edən əsər h. Cumadi-uxra 1298/m. May 1881-ci ildə yazılmışdır. Eyni əsərə Gürcüstan kataloqunda da rast gəlindi, burada risalənin adı *"Cəht əl-ğərib fi cavab əl-əryəb Ğəznəğər əfəndi əd-Dağıstani"*, tarix isə cumadi I 1294/may 1877-ci il verilmişdir [10, c.II, s.191].

27. Abidənin 141^a^ vərəqindəyarım səhifədən ibarət *"Cavab sual Molla İsa fi məani qul Abdulqadir əs-Səğri"* əsərində sual nəzmlə, cavab isə nəsrlə verilmişdir. Sonu Həsən əl-Əlqədari, h. 25 Məhərrəm 1288/m.16 Aprel 1871-ci il tarixi ilə bitir. Eyni adlı əsər Gürcüstan kataloqunda da eyni tarixlə qeyd edilmişdir [10, c.II, s.190].

28. Müxtəlif şəxslərə Həsən əl-Əlqədari tərəfindən göndərilən şeirlər əlyazma toplusunun 141^b^-142^a^ vərəqlərini əhatə edir.

29. Yeddi fiqhi məsələnin şərhindən bəhs edən risalə *"Fəth əl-hadi fi muşkilat Molla Mehdi əs-sakini Çaxçax"* (Dağıstana məxsus kənd) adlandıraraq h.8 Məhərrəm 1303/m.17 Oktyabr 1885-ci ildə müəllif tərəfindən yazılmışdır. Əlyazma toplusunun 142^b^-145^a^ vərəqlərini əhatə edən mətnin sonu üç

beytlik şeirlə bitir. Eyni adlı əsər Gürcüstan kataloqunda 8 Məhərrəm 1303/17 Oktyabr 1886 tarixi ilə qeyd edilmişdir [10, c.II, s.191].

30. Gürcüstan kataloqunda da ardıcıl gələn risalə *"Cavab əsiləti Molla ət-Tayyib əl-Jeyxuri"* adlansa da, Azərbaycanda əsər *"Risalə fi əl-əcvibə li-əsiləti Molla ət-Tayyib"* adı altında abidənin 145[b]-148[b] vərəqlərini əhatə edir [11, c. IV, s. 306-307]. Yeddi fiqhi məsələ barədə olan suala cavab h. 3 Şaban 1303/m.8 May 1886-ci ildə müəllif Həsən əl-Əlqədari tərəfindən Əlqədar kəndində yazılmışdır. Gürcüstan kataloqunda da eyni adlı əsər eyni tarixlə verilmişdir [10, c.II, s.191].

31. Əlyazma toplusunun 149[a] vərəqində Məhəmməd peyğəmbərin hicrətinə həsr olunmuş şeir yerləşir. Yarım səhifəni əhatə edən əsər h.1257/m. 1842-ci ildə Beyrutda yazılmışdır. Müxtəlif şeirlər 149[b] vərəqində də davam edir.

32. Zəkat haqqında Molla Mirzəxanın Həsən əl-Əlqədarinin cavabı *"Cavab sual Molla Mirzəxan"* adlanır və əlyazma məcmuəsinin 150[a]-150[b] vərəqlərini əhatə edir. H. 17 Ramazan 1305/m. 28 May 1888-ci ildə yazılmış mətndən sonra şeirlər vərəqin sonuna qədər davam edir. Eyni adlı əsər Gürcüstan kataloqunda 14 Ramazan 1305/25 May 1888 tarixi ilə qeyd edilmişdir [10, c.II, s.192].

33. Əbdürrəzzaq əl-Həraqi və Məhəmməd əl-Həraqiyə səkkiz fiqhi suala Həsən əl-Əlqədari tərəfindən yazılmış risalə *"Cavab əsiləti əl-Həraqiyan Aburrəzzaq və Məhəmməd əl-Həraqin"* adlanır. Abidənin 152[b]-155[a] vərəqlərini əhatə edən əsər müəllif Həsən əl-Əlqədari tərəfindən h. Zilhiccə 1310/m. İyul 1893-cu ildə köçürülmüşdür. Gürcüstan kataloqunda da eyni adlı əsər eyni tarixlə verilmişdir [10, c.II, s.193].



34. Yazılı abidənin 155b-158b vərəqlərində müxtəlif mövzularda xütbələr yer alır. Tarixi qeyd olunmayan bu mətnlər də Rusiya istehsalı kağızlara yazılsa da, başqa fabrikə məxsusdur. Vərəqlərin küncünə fabrikin dördbucaq möhürü vurulmuşdur. İçində yuxarı hissədə *"товарищество"*, ortada şirin yan tərəfdən bütov şəkli, şirin sağında və solunda "№4", alt hissədə isə *"куваинова"* sözləri yazılmışdır.

35. Zəkat haqqında olan növbəti əsər *"Mə hukmi dəfəə əz-zəkat limən ləm yəkun fi muhəlliha vaxti cəvanuha məə vucud əl-əsnaf"* adlanaraq əlyazma toplusunun 159a-159b vərəqlərini əhatə edir. Həsən əl-Əlqədari tərəfindən köçürülmüş əsərin tarixi h. 5 Cumadi əvvəl 1308/m. 18 Dekabr 1890-ci il kimi qeyd edilmişdir. Gürcüstan kataloqunda da eyni adlı əsər eyni tarixlə verilmişdir [10, c.II, s.192].

36. Abidənin 160b-181b vərəqlərini əhatə edən Əli bin Əhməd əl-İraqi əl-Osmaniyə məxsus *"Əs-seyf əl-batir li-ərqab əş-Şiə və Rafizə"* əsəri adından da göründüyü kimi məzhəblərdən bəhs edir [12, c.III, s.2000 ]. 160a vərəqində əsərin adı qırmızı rəngli mürəkkəblə yazılıb. H. 4 Zil-hicc. 1323/m. 29 May 1895-ci ildə katib Məhəmməd bin Molla Mehdi tərəfindən Həsən əfəndi əl-Əlqədarinin mədrəsəsində köçürülmüşdür. Səhifələrin arasında yarım dəftər vərəqinə Mahmud Əfəndiyə nikahla bağlı Məhəmməd əl-Əlqədarinin May 1925-ci ildə yazdığı məktub yerləşir.

37. Həsən əl-Əlqədarinin Əbrürrəhim əl-Ğazi əl-Ğumuqiyə olan cavabı *"Cavab əsiləti Əbdürrəhim əl-Ğazi əl-Ğumuqi"* adlanaraq əlyazma məcmuəsinin 184a-185a vərəqlərini əhatə edir. Abidənin 184-219 vərəqlərini əhatə edən kağızlar bir mil məktəb vərəqləridir. İslam dini haqqında üç cavabdan ibarət mətnin sonu yazılma tarixi h. 1314/ m. 1896 və müəllifin adı Həsən Əl-Əlqədari əş-Şafei sözləri ilə bitir. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.193].

38. Əlyazma toplusunun 185a- 188b vərəqlərini Molla Ömər və Əli əfəndi əs-Səltiyə beş fiqhi məsələ ilə bağlı Həsən əl-Əlqədarinin cavabı olan *"Cavab əsiləti Molla Ömər və Əli əfəndi əs-Səlti"* əsəri əhatə edir. 187b vərəqdən sonra əsər nəzmlə davam edir və h. 22 Rəbiul-sani 1317/m. 29 Avqust 1899-cu ildə yazılmışdır. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.194].

38. Özündə Həsən əl-Əlqədarinin Molla Fəşaya olan üç dini məzmunlu cavabını ehtiva edən risalə *"Cavab əsiləti Molla Fəşa"* adlanır. Abidənin 189a- 190b vərəqlərini əhatə edən əsər h. 22 Zilqədə 1317/m.24 Mart 1900-cu ildə Həsən əl-Əlqədari tərəfindən Dağıstanın əl-Əlqədar kəndində yazılmışdır. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.194].

39. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərlərdən sonra gələn *"Cavab əsiləti Molla Şamxal"* Əlyazmalar İnstitutunda qorunan əlyazma məcmuəsində də ardıcıl gələrək 190b-194a vərəqlərini əhatə edir. Dini sual-cavabdan ibarət əsər Həsən əl-Əlqədari tərəfindən Molla Şamxala yazılmışdır. Mətnin sonu h. Ramazan 1320/m. Dekabr 1902-ci il Əlqədar kəndində sözləri ilə bitir. Eyni adlı əsər Gürcüstan kataloqunda Məhərrəm 1317/May 1900 tarixi ilə qeyd edilmişdir [10, c. II, s. 192].

40. Abidənin 194a-203a vərəqlərini əhatə edən Həzi əl-Avariyə Həsən əl-Əlqədarinin cavabı dini mövzuları əhatə edərək müqəddimə, iki fəsil və xatimədən (sonluq) ibarətdir. Həm nəsr ilə, həm də nəzmlə yazılmış risalənin sonunda tarix sözlərlə verilmişdir: h. Səfər 1320/m. May 1902-cil ildə nasir Kuradan (Həsən əl-Əlqədari) Dağıstan vilayətinin Əlqədar kəndində.

41. Müəllifin talaq haqqında olan bir səhifəlik sual-cavab risaləsi əlyazma toplusunun 203b vərəqlərini əhatə edir. *"Cavab əs-sual fi təfsil vaqiəti vahid talaq zəvcətihi bidəxul dəkan zeyd mislə leykəl"* adlı əsərin sonunda müəllifin adı Həsən əl-Əlqədari, tarix isə h.15 Səfər 1323/m.20 Aprel 1905-ci il qeyd edilmişdir. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.194].

42. Hacı Əlil Əfəndiyə Həsən əl-Əlqədarinin dini məzmunlu üç cavabı *"Bəyan əl-əqval Hacı Əlil Əfəndi"* adlanaraq abidənin 204a-205a vərəqlərini əhatə edir. Mətnin sonunda tarixdən əvvəl iki beyt şeir verilmişdir. Əsər h. 2 Məhərrəm 1323/m. 9 Mart 1905-ci ildə Əlqədar kəndində yazılmışdır.

Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.194].

43. Əlyazma məcmuəsinin 205[a]-206[a] vərəqlərini əhatə edən *"Cavab əsiləti ən əşyai muxtəlifə"* əsəri iki müxtəlif dini sula-cavabdan ibarətdir. Əsər h. 1 Məhərrəm 1323/m.8 Mart 1905-ci ildə müəllif Həsən əl-Əlqədari tərəfindən yazılmışdır. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.194-195].

44. *"Cavab sual əl-alim Məhəmməd Əfəndi bin Baybalat əl-Avari"* əsəri Məhəmməd Əfəndi bin Baybalat əl-Avarinin iki dini sualına Həsən əl-Əlqədarinin cavabından ibarətdir. Risalə abidənin 206[b]-207[a] vərəqlərini əhatə edərək h. 17 Zilhiccə 1324/m.1 Fevral 1907-ci ildə Həsən əl-Əlqədari tərəfindən yazılmışdır. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.195].

45. Həsən əl-Əlqadarinin dini məzmunlu qəsidəsi əlyazma toplusunun 207[b]-208[a] vərəqlərini əhatə edir. Müəllifi qəsidənin əvvəlində h. 1322 Zilhiccə ayının əvvəlində /m. Fevral 1905-ci ildə yazıldığını qeyd etmişdir.

46. Abidənin 208[b]-209[a] vərəqlərini əhatə edən *"Cavab sual Molla Nik Məhəmməd fi əl-Quran"* əsəri özündə Molla Nik Məhəmmədin Quran haqqında olan sualına Həsən əl-Əlqədarinin cavabını ehtiva edir. Mətnin ortasında dörd beyitlik şeir olan əsərin sonunda bu risalənin h.17 Rəcəb 1326/m. 15 Avqust 1908-cu ildə Kura nahiyəsinin Əlqədar kəndində müəllif tərəfindən yazıldığı qeyd edilmişdir. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.195].

47. Həsən əl-Əlqədarinin İslam dinindən bəhs edən növbəti əsəri əlyazma məcmuəsinin 209[b]-211[a] vərəqlərini əhatə edir. Mətnin sonunda yazılma tarixi miladi tarixi ilə 1908-ci il Əlqədar kəndində, müəllifin adı qısa olaraq Həsən yazılmışdır.

48. Bakı şəhərində yaşayan Abdulla Əfəndi və Tahir Əfəndi kimi Dağıstan alimlərinin suallarına Həsən əl-Əlqədarinin cavabı *"Cavab musələti Abdulla Əfəndi və Tahir Əfəndi əd-Dağıstani"* əsərində cəmlənmişdir. Əlyazma toplusunun 211[a]-212[a] vərəqlərini əhatə edən əsərin sonunda tarix verilməyib. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.195].

49. Yuxarıda qeyd olunan əsərdən sonra bəsmələ yazılmadan mövzunun davamı olan *"Cavab əl-məsələti mutəəlliqə biqəədi və iqamə əl-cumə fi bəlädi Baku"* əsəri abidənin 212[a]-213[a] vərəqlərini əhatə edir. Həsən əl-Əlqədari tərfindən h.14 Rəbiul-əvvəl 1326/m.16 Aprel 1908-ci ildə yazılmışdır. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.195].

50. Əlyazma toplusunun 213[a]-214[a] vərəqlərini əhatə edən *"Cavab sual Molla Məhəmməd nafilə əl-Hacı Əli bəy Əfəndi fi xususi cəvaz əxəzi bəzi əl-muslimin li-mali Əhli əl-Kitab"* əsəri Gürcüstan kataloqunda da yuxarıda qeyd edilən əsərdən sonra gəlir. Dini məzmunlu mətnin sonunda tarix miladi təvmimi ilə 21 Mart 1909-cu il və müəllifin adı Həsən əl-Əlqədari sözləri yazılmışdır. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.195-196].

51. Talaqla bağlı mövzu *"Fi cəri əl-lisəni bi ət-talaq məə zəvcətuhu hali zəval əş-şuur"* əsərində davam edərək abidənin 214[a]-214[b] vərəqlərini əhatə edir. Risalə h. 7 Rəbiul-əxir 1327/m. 28 Aprel 1909-cu ildə müəllif tərəfindən yazılmışdır. Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gələrək adı və tarixi eynidir [10, c.II, s.196].

52. Əlyazma toplusunun 214[b]-216[b] vərəqlərini əhatə edən fiqhi məzmunlu *"Fi iqamə salət əz-zuhr bəəd əl-cumə fi qurra Dağıstan"* əsəri də Gürcüstan kataloqunda yuxarıda qeyd edilən əsərdən sonra gəlir. Mətnin sonunda müəllifin adı verilməsə də, tarix h. Rəcəb 1328/m.İyul 1910-cu il qeyd edilmişdir. Gürcüstan kataloqunda da bu əsərin adı və tarixi eynidir [10, c.II, s.196].

53. Abidənin 220-ci vərəqindən sonra əsərlər yenidən Rusiya istehsalı olan, kənarlarına içində "№4" yazılmış fabrikin dördbucaq möhürü vurulan kağızlarla davam edir. 220[a] vərəqində müxtəlif istiqamətlərə qara mürəkkəblə yazılmış qeydlər vardır. 220[b]-228[a] vərəqlərində fiqhə aid qırx iki suala

Həsən əl-Əlqədarinin cavablarından ibarət *"Əcvibə ... fi bəyani məsail fiqhiyyəti"* əsəri h. 8 Səfər 1318/m.6 İyun 1900-cu ildə yazılmışdır.

54. Fiqhə aid növbəti əsər əlyazma məcmuəsinin 228$^{b}$-231$^{b}$ vərəqlərini əhatə edərək bəsmələsiz başlayır. Altı məsələnin şərhi olan risalənin sonunda tarix həm hicri, həm də miladi təqvimi ilə yazılıb: Zilhiccə 1300/ 1883.

55. Bəsmələsiz başlayan növbəti əsər də talaq haqqındadır və əlyazma toplusunun 231$^{b}$-233$^{b}$ vərəqlərini əhatə edir. Mətnin sonunda tarix göstərilməmişdir.

56. Növbəti əsər də bəsmələsiz başlayaraq Hacı Həmzə əl-Cərəkiyə yazılmışdır. Abidənin 233$^{b}$-235$^{a}$ vərələrini əhatə edən əsər h. Ramazan 1296/m. Avqust 1879-cu ildə yazılmışdır.

57. Qiblə haqqında olan risalə əlyazma məcmuəsinin 236$^{b}$-237$^{a}$ vərəqlərini əhatə edir. Mətnin sonunda nisbətən kiçik şriftlə tarix yazılmışdır: h. Şəvval 1296 /m. Sentyabr 1879.

58. Məhəmməd ibn İshaqa cavab olan risalə də bəsmələsiz başlayır. Müxtəlif fiqhi məsələrdən bəhs edən əsər əlyazma məcmuəsinin 237$^{b}$-239$^{b}$ vərəqlərini əhatə edir və sonda tarix göstərilməmişdir.

59. Mirasdan bəhs edən əsər abidənin 240$^{a}$-242$^{b}$ vərəqlərini əhatə edərək bəsmələsiz başlayır. Sonda əsər və tarix haqqında heç bir məlumat verilməyib.

60. Həsən əl-Əlqədaridən Molla Yusifə olan əsər əlyazma məcmuəsinin 243$^{a}$-243$^{b}$ vərəqlərini əhatə edir. Fiqh məzmunlu risalənin sonunda tarix h. 10 Cumadi əvvəl 1322/m.24 İyul 1904-cu ildə Həsən əl-Əlqədari tərəfindən yazılması qeyd edilmişdir.

61. Əlyazma toplusunun sonuncu əsəri 244$^{a}$ vərəqində yerləşərək bəsmələsiz başlayır. Məktub tipli mətn dini məzmunlu olaraq Həsən əl-Əlqədari tərəfindən yazılmışdır.

## Nəticə

*Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun zəngin xəzinəsində saxlanılan B-4156 şifrəli əlyazma üzərində geniş araşdırma aparılmış və bunun nəticəsi olaraq mətnşünaslıq baxımından bir sıra yenilik təqdim olunmuşdur. Həmçinin ləzgi-islam alimi Həsən əl-Əlqədarinin yaradıcılığının bir hissəsinin burada qorunması Azərbaycanın bütün dövrlərdə tolerant dövlət olmasının göstəricisidir. Gürcüstanda da saxlanılan eyni adlı kitabın Azərbaycanda saxlanılan nüsxə ilə müqayisəli təhlil edilməsi və Bakıdakı əlyazma nüsxəsinin əvvəl yazılmasının aşkar olunması Həsən əl-Əlqadari tədqiqatçılarına elmi bir töhfə olacaqdır.*

## Ədəbiyyat siyahısı:

1. https://az.wikipedia.org/wiki/Mirzə_Həsən_Əlqədari
2. https://ru.wikipedia.org/wiki/Гасан_Алкадари
3. Nurəliyeva T. Həsən Əlqədari və onun kolleksiyası / AMEA Əlyazmalar İnstitutu. Əlyazmalar xəzinəsi. – Bakı: Elm, - c. 8. – 1987. – s. 95-102.
4. Süleymanova N. Həsən Əlqədarinin elmi irsi Azərbaycan əlyazmalarında / Dövlət və Din. – Bakı: Azərbaycan nəşriyyatı, - № 01 (64). – 2020. s. 77-81.
5. Əlqədari H. Asari Dağistan / - Sankt Peterburq: - h.1312/m.1895. - s. 255.
6. Əlqədari H. Cirab əl-Məmnun / İslamiyyə mətbəəsi. - Dağıstan: -1912. – s. 306.
7. Əlqədari H. Divan əl-Məmnun / İslamiyyə mətbəəsi. - Dağıstan: -1913. – s. 282.
8. حسن الالقدارى. جراب الممنون / Əlyazmalar İnstitutu. B-4156, - 1910. – 244 v.
9. فهرس مخطوطات دار الكتب الظاهرية. الطب و الصيدلة. - [جلد٢] – دمشف - ج.٢. – ٤٩٠ص.
10. Каталог арабских рукописей института рукописей им. К.С. Кекелидзе / (Коллекция L-Выпуск I) - Тбилиси: Мецниереба, - 1978. - 299с.

11. Каталог арабских рукописей. НАНА Институт Рукописей имени Мухаммеда Физули: / [в 4 томах] – Баку: Издательство Елм, т. 4. - 2019. - 487 с.
12. Karabulut, A. R. Dünya kütüphanelerinde mevcut islam kültür tarihi ile ilğili eserler ansiklopedisi: [6 ciltte] / A. T. Karabulut. – Kayseri: Mektebe yayınları, - c.3. – 2001. 1601-2413 s.

**Yegana Rahnulla**

**Lezgi-Islamic scientist Hasan al-Alqadari and scientific-paleographic features of his autographed manuscripts**

***Summary***

One of the non-Azerbaijani scientists who played an important role in the public life of Azerbaijan with his creativity is Mirza Hasan al-Alqadari, a prominent representative of the Lezgi people. Despite being born, raised and educated in Dagestan, he learned the Azerbaijani language, and was engaged in journalism in Azerbaijan, maintaining close contact with local public and scientific figures. For this reason, the scientist wrote works in Azerbaijani, along with Arabic and Persian, and worked as a secretary by copying several famous works. Examples of Hasan al-Alqadari's rich creativity are preserved in the fund of autograph manuscripts, old printed books, periodical press materials, and personal archives at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. In the autograph book B-4156, which is one of the autograph books kept at the Institute of Manuscripts, a work with jurisprudence written by the author near his death, covering pages 214b-216b of the manuscript collection, the date is recorded as Rajab 1328 AH/July 1910 AD.

***Key words:*** *Azerbaijani manuscripts, Lezgi-Islamic scholar, autograph manuscript collections, Hasan al-Alqadari*

*Filologiya üzrə elmlər doktoru, professor*
***Kamandar Şərifov** tərəfindən çapa tövsiyə olunmuşdur.*